İzahlı qeydlər

Azərbaycan Sosial Rifah Partiyası (ASRP) 26 noyabr 1994-cü ildə yaranmış, 04 avqust 1995-ci ildə isə siyasi partiya olaraq Dövlət Qeydiyyatından keçmişdir. Dövlət qeydiyyatı haqqında Şəhadətnamənin (dublikat) nömrəsi 27, 25 avqust 2000-ci il.

ASRP Qeyri-Kommersiya hüquqi şəxsdir.

ASRP-nin rekvizitləri:

"Rabitəbank" ASC

Müxbir hesabı: AZ61NABZ01350100000000006944

Kod: 506399

VÖEN: 9900001061

S.W.I.F.T. RBTAAZ22

Hesab №-si: AZ09RBTA00330801009440000639

VÖEN: 1700169681

Ünvan: Şərifzadə küçəsi, 3152/56

ASRP-nin əsas fəaliyyəti əhalinin bütün təbəqələrinin sosial müdafiəsinin səmərəli sisteminin yaradılmasını nəzərdə tutan sosial proqramların yerinə yetirilməsi, onların rifah halının, elmi, mədəni, mənəvi və əxlaqi səviyyəsinin yüksəldilməsi yolu ilə hümanist hüquqi və demokratik dövlətin qurulması və gündən-günə tərəqqisinə nail olmaqdır. ASRP bütün fəaliyyətini öz Nizamnaməsinə, "Siyasi Partiyalar haqqında" AR Qanununa və digər qanunvericilik Aktlarına istinad edərək aparır.

"Siyasi Partiyalar haqqında" AR Qanununda dəyişikliklər edilməsi barədə 2012-ci il 20 aprel tarixli, 346-NOD nömrəli Qanununun tətbiqi haqqında AR Prezidentinin 2012-ci il 8 may tarixli, 625 nömrəli Fərmanının 2.3 bəndinə əsaslanaraq, Siyasi Partiyalara dövlət büdcəsindən ayrılmış maliyyə yardımı 2016-ci il üzrə onların arasında bölüşdürülmüş və 98214 man. 29 qəp. Azərbaycan Sosial Rifah Partiyasının bank hesabına (il boyu rüblər üzrə) köçürülmüşdür.

ASRP mühasibat uçotunu "Mühasibat uçotu haqqında" AR Qanununa uyğun aparır. AR Nazirlər Kabinetinin 2012-ci il 16 noyabr tarixli, 263 nömrəli Qərarı ilə Maliyyə hesabatlarının formasını, məzmununu və təqdim edilmə Qaydalarınnı təsqiq etmişdir. ASRP 2016-ci ilin Maliyyə hesabatlarını bu Qaydalara uyğun tərtib edərək təqdim edir.

1 nömrəli forma üzrə "Maliyyə vəziyyəti haqqında hesabat" aşağıdaki kimidir.

01.01.2016-cı il tarixinə partiyanın əsas vəsaitlərinin (ilk) bərpa dəyəri 30760 man., köhnəlməsi 10773 man 66 qəp. hesablanmış, qalıq dəyəri 19986 man 40 qəp. olmuşdur. İl ərzində 8500 man. əsas vəsaitlər alınmışdır.

31.12.2016 il tarixinə partiyanın əsas vəsaitlərinin (ilk) bərpa dəyəri 39260 man., köhnəlmə 14200 man. 81 qəp., qalıq dəyəri 25059 man. 25 qəp. təşkil etmişdir.

"Pul vəsaitləri və onların ekvivalentləri" maddəsi üzrə əvvəlki dövrdə, yəni hesabat ilinin əvvəlinə 102 man. 89 qəp., ilin sonuna isə 109 man 22 qəp. olmuşdur. Cəmi aktivlər və öhdəliklər 25168 man 47 qəp. təşkil etmişdir.

2 nömrəli forma üzrə "Maliyyə vəziyyətinin nəticələri" haqqında hesabata gəldikdə 2016-cı ilin hesabat dövrü ərzində dövlət büdcəsindən Azərbaycan Sosial Rifah Partiyasına 98214 man. 29 qəp. maliyyə yardımı ayrılmışdır.

Bu vəsaitdən cari işlərə 38923 man. 13 qəp., o cümlədən texniki xidmətə 100 man., tikinti materialların alınmasına 5360 man., təmir işlərinə 26900 man., elektrik enerjisinə 2045 man., avtoservis və təmirə 3000 man., auditor xidmətinə 1000 man., bank xidmətinə 518 man. 13 qəp. sərf olunmuşdur.

"Siyasi partiyanın saxlanmasına" və informasiya təminatına çəkilən xərclər maddəsi üzrə cəmi 55109 man 12 qəp., o cümlədən 31471 man. 33 qəp. əmək haqqının ödənilməsinə, 9396 man. 35 qəp. DSMF-yə, 4986 man. 52 qəp. gəlir vergisinə, 699 man. 50 qəp. dəftərxana ləvazimatının alınmasına, 50 man. yol vergisinə, 5 man. 42 qəp. torpaq vergisinin ödənilməsinə, 8500 man. əsas vəsaitlərin (3 ədəd Noutbuk və 1 dəst ofis mebelinin) alınmasına xərclənmişdir.

"İctimaiyyətlə əlaqələrə çəkilən xərclər" 2709 man., o cümlədən tədbirlərin keçirilməsi üçün ləvazimatın alınması 743 man., icarə haqqı 150 man., yeni kartriclərin alınması, doldurulması və təmiri 180 man., telefon abunə haqlarının ödənilməsi 646 man., Printerin, kseroksin, cildləmə avadanlığının alınması xərcləri 990 manat təşkil etmişdir. Sair xərclərə 1466 man. 71 qəp. xərclənmişdir.

31 dekabr 2016-cı il tarixinə ASRP-nin əsas vəsaitlərinə 3427 man. 15 qəp. amortizasiya hesablanmışdır.

2016-ci ilin sonuna 109 man. 22 qəp. pul vəsaiti qalmışdır. Ümumi mənfəət 6 man. 33 qəp. təşkil edir.

ASRP tərəfindən 2016-cı il üzrə xərclərin açıqlanması izahlı qeydlərə əlavə olunur (qoşma 1 vərəq).

Azərbaycan Sosial Rifah Partiyası ASRP

**Azərbaycan Sosial**
**Rifah Partiyasının Sədri** **X.Kazımlı**